# *"Euronews"*: "Azərbaycanın hərbi paradı Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcıdır"

**"Azərbaycan Qarabağ üzərində nəzarəti bərpa etməsinin ildönümünü qeyd edərək, Cənubi Qafqazda yeni sülh mərhələsinin əsasını qoydu ki, bu da həm ölkə, həm də bütün region üçün tarixi bir məqamdır".**




AZƏRTAC xəbər verir ki, bu fikir "Euronews" televiziya kanalının internet səhifəsində dərc olunan məqalədə qeyd olunub.

"Azərbaycanın hərbi paradı Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcıdır" adlı yazıda qeyd olunub ki, hərbi paradda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın qazandığı Zəfərin regionun inkişafı üçün yeni perspektivlərin açdığını, ölkənin isə strateji və iqtisadi inkişafında böyük rol oynayacağını vurğulayıb. Qarabağda geniş yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini qeyd edib.

Azərbaycan Prezidenti hərbi paradda iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Pakistanın Baş naziri Şahbaz Şərifə 44 günlük Vətən müharibəsində Azərbaycana göstərdikləri dəstəyə görə təşəkkür etdi və bildirdi ki, bu, üç ölkənin - Azərbaycan, Türkiyə və Pakistan xalqları və ordularının birliyinin təzahürüdür.

Paradda çıxış edən Türkiyə Prezidenti deyib ki, Qarabağdakı Qələbə Asiya və Avropada geosiyasi tarazlığı yenidən formalaşdırdı və bölgəmiz üçün yeni bir dövrün qapılarını açdı. "Biz heç bir kin saxlamırıq və keçmişin ağrılı fəsadlarının təkrarlanmasına heç vaxt imkan verməyəcəyik" deyən R.T.Ərdoğan əlavə edib ki, Qafqazda sülh bütün regionun çiçəklənməsinə xidmət edəcək.

Məqalədə o da vurğulanıb ki, ötən həftə Bakıda NATO nümayəndə heyəti ilə görüşdə Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşmaq niyyətində olduğunu və Türkiyə Ordusu ilə işlədiyini bildirib.

Avqust ayında ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri onilliklərdir davam edən Qarabağ münaqişəsinə son qoymağı hədəfləyən müqavilə imzalayıblar. Ağ Ev bildirib ki, müqavilənin bir hissəsi olaraq, ABŞ Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) (Zəngəzur dəhlizi) adlandırılacaq mərkəzi tranzit dəhlizinin inşasına kömək edəcək. Bu dəhliz Azərbaycanın Naxçıvan və Türkiyə ilə əlaqələrini artırır. Həmçinin Azərbaycanın mühüm qlobal nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirir. Dəhliz eyni zamanda Ermənistana geniş ticarət şəbəkələrinə daha da inteqrasiya olunmaq, bərbad iqtisadiyyatını şaxələndirmək və xarici investisiyaları cəlb etmək üçün fürsət yaradır.

Geosiyasi baxımdan bu, Ermənistana qonşuları, xüsusən də Türkiyə ilə münasibətlərini normallaşdırmağa kömək edəcək.

Azərbaycan.- 2025.- 13 noyabr (№ 241).- S.10.